**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN ANADİLLİ POEZİYASINDA MİLLİ YADDAŞ VƏ ONUN YARATDIĞI MİLLİ ÖZÜNÜİFADƏ ƏNƏNƏSİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Esmira Xəlil qızı İsmayılova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Lənkəran Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**İslam Eynəli oğlu Qəribov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Esmira Seyfəl qızı Fuad** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Elçin Hüseyn oğlu Məmmədov** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Leyla Allahqulu qızı Əliyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>________________________ | akademik, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının elmi katibi:<br>________________________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsmixan Məhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri:<br>________________________ | filologiya elmləri doktoru, dosent<br>**Əlizadə Bayram oğlu Əsgərli** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

***Mövzunun aktuallığı və işlənmə dərəcəsi.*** Ədəbiyyatın tarixi insanlığın tarixi qədər qədimdir. Cəmiyyət yaranandan, insan özünü tanıyandan onu duyğulandıran hisslərini sözə çevirməyə çalışıb. Sözlərdən misralar, misralardan şeirlər yaranıb və bu minvalla da poeziya sənəti formalaşıb, inkişaf edib, hazırkı günümüzə çatıb.

Zamanın vaxt və bəxt sınağından üzüağ çıxıb əbədiyaşarlılıq qazanan poeziya nümunələrinin və onları yaradan sənətkarların tarixdə qalması sözün ilahi sehrindəndir. Bu mənada "Əvvəli sultani-eşq, axırı ustadi-şeir Şəhriyar" adlandırılan ustad şair Seyid Məhəmmədhüseyn Şəhriyar (1906-1988) xoşbəxt insan, sənətkar sayıla bilər. Sağlığında və ölümündən illər sonra da şeirsevərlər, poeziya xiridarları üçün M.Şəhriyar yaşarıdır, əvəzolunmazdır. O taylı, bu taylı Azərbaycanda, Şərq dünyasında çox az adam tapılar ki, onun yaradıcılığı ilə tanışlığı olmasın, şeirlərindən heç olmasa bir neçəsini əzbər bilməsin, "Heydərbabaya salam"ın ovsununa düşməsin .

M. Şəhriyar yaradıcılığının sehri ondadır ki, onun söz xəzinəsi təkcə doğulduğu Cənubi Azərbaycanda deyil, Arazın bu tayında, bütün Şərq dünyasında ədəbi proseslərə ciddi təsir göstərən poeziya olub. Vətənpərvər şair milli yaddaşa qayıdış məsələsinə yaradıcılığında geniş yer ayırmış, ikiyə parçalanmış Vətənin niskilini ağrılı dillə əks etdirməyi vətəndaşlıq borcu bilmişdir. Vətən təəssübkeşliyi şairin anadilli əsərlərinin qayəsini təşkil edir.

İranda milli oyanış dövrü ədəbiyyatının formalaşmasında Şəhriyarın rolu əvəzsizdir. Ölməz söz ustadının anadilli əsərlərinin təhlili göstərir ki, milli-mənəvi dəyərlərin təbliği, Azərbaycanın bütövlüyünə çağırış mövzusu şairin yaradıcılığının ana xəttini təşkil edir. Klassik və modern şeir vəznlərindən, şeir formalarından yaradıcılığında ustalıqla istifadə edən, "söz sərrafı" adlandırılan Şəhriyar klassik Şərq poeziyasına yeni nəfəs gətirmiş, onu forma və struktur baxımından təkmilləşdirməyi bacarmış, özünün poeziya məktəbini yaratmaqla ədəbiyyat dünyasında iz qoymuşdur. "Heydərbabaya salam", "Səhəndiyyə" poemalarının bu günümüzdə də dünya söz sənətinin nadir inciləri sırasında olmasının əsas səbəbi məhz budur.

Xatırladaq ki, "əsrinin Hafizi" adlandırılan M.Şəhriyarın adı ölkəmizdə ötən əsrin ortalarından çəkilməyə başlanıb. XX əsrin 50-ci illərindən başlayaraq şairin həm farsdilli poetik əsərlərindən edilmiş tərcümələri, həm də anadilli şeir və poemaları dəfələrlə nəşr olunaraq ölkəmizdə yayılmış, yaradıcılığı barədə dəyərli tədqiqatlar aparılmış, monoqrafiyalar yazılmışdır. Amma şairin anadilli yaradıcılığında milli yaddaş məsələsi, millətin özünə qayıdışı, özünüifadəsi problemi ayrıca mövzu kimi xüsusi araşdırmaya cəlb edilməmişdir.

Şəksiz ki, böyük sənətkarın ədəbi irsi olduqca zəngindir və hər araşdırma yeni-yeni mətləbləri, incəlikləri ortaya çıxarır. Düşünürük ki, "Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasında milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsi" mövzusunun ayrıca araşdırılması şairin yaradıcılıq yolunun, əsərlərinin bədii xüsusiyyətlərinin təhlili baxımından əhəmiyyətli olacaq, yeni müzakirələrə yol açmaqla şəhriyarşünaslığa töhfə verəcəkdir.

Etiraf edək ki, M. Şəhriyarın vəfatından on illiklər keçsə də, qüdrətli söz ustadının yaradıcılığında hələ də öyrənilməsi vacib olan kifayət qədər məsələlər, problemlər var. Təbii ki, söz sərrafının həyat və yaradıcılıq yolu, mövzular aləmi, sənətkarlıq xüsusiyyətləri, əsərlərinin nəşr tarixi və sair barədə az yazılmayıb. Amma xalqımız üçün ölüm-dirim məsələsi olan İkinci Qarabağ savaşında,Vətən müharibəsində Cənub qonşumuzun sərgilədiyi ermənipərəst mövqe göstərdi ki, Şəhriyar şerinin ictimai-siyasi gücündən istifadəyə həmişə ehtiyac var. Arazın o tayında yaşayan soydaşlarımızda milli təəssübkeşlik hissinin, milli yaddaşın oyadılmasında, Azərbaycançılıq ideyasının, vətənpərvərlik duyğularının alovlandırılmasında Şəhriyarın milli-vətənpərvərlik mövzusunda yazdığı, azərbaycançılığı, türkçülüyü, vahid Vətən ideyasını təbliğ edən şeirlərindən bir silah kimi istifadə etmək zərurəti bu gün də hiss olunur.

Söz ustadının yaradıcılığında gələcək nəsillər üçün də aktual olacaq, dəyərini saxlayacaq çox nüanslar var ki, onu zaman-zaman araşdırmaq, nəticələrini yeni nəslə çatdırmağa ehtiyac duyulur.

Qeyd edək ki, "Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasında milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsi" bu tədqiqata qədər ayrıca, müstəqil mövzu kimi öyrənilməmişdir. Düzdür, M.Şəhriyar yaradıcılığına həmişə maraq olmuş, ötən əsrin 60-

cı illərindən başlayaraq bu günə kimi həyat və yaradıcılığı barədə ardıcıl tədqiqatlar aparılmış, əsərləri Azərbaycanda və dünyanın əksər ölkələrində böyük tirajlarla, dəfələrlə nəşr olunmuşdur. Bu sıradan M.Ə.Rəsulzadə, M.İbrahimov, Ə.Cəfəroğlu, H.Məmmədzadə, Q.Beqdeli, B.Nəbiyev, İ.Həbibbəyli, C.Heyət, E.Quliyev, İ.Qəribli, H.Billuri, M.Əlizadə, R.Sultanov, E.Fuad (Şükürova), N.Rizvan, Y.Gədikli, S.Şıxıyeva, M.Məhəmmədi və onlarla başqa müəlliflərin əsərlərinin və müxtəlif illərdə M.Şəhriyarın çap olunmuş əsərlərinin adını çəkmək olar və biz tədqiqatımız boyu bunlardan bəhrələnmiş, münasibət bildirmişik. Bizdən əvvəlki müəlliflərdən fərqli olaraq, biz şairin əsasən anadilli yaradıcılığını tədqiqata cəlb edərək təhlil etməyə çalışmış, milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsinin hazırkı dövrdə rolunu önə çıxartmağa önəm vermişik. Sovetlər dönəmində və ölkəmiz müstəqillik qazanandan sonrakı dövr ərzində M.Şəhriyarın əsərlərinin Azərbaycanda nəşr xronologiyasını və tədqiqini araşdırmaq dissertasiyamızın əsas istiqamətlərindəndir.

***Tədqiqatın obyekti və predmeti.*** Tədqiqatın əsas predmeti Seyid Məhəmmədhüseyn Şəhriyarın ana dilində yazdığı əsərləri, bu əsərlərdə günümüzə qədər sistemli şəklidə araşdırılmamış milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsinin bədii inikası məsələləridir. Tədqiqatın obyektini isə şairin həyatı və ədəbi irsinin əsas cəhətləri, haqqında aparılmış araşdırmalar, elmi tədqiqat işləri, Şəhriyarşünas alimlərin fikir və mülahizələri təşkil edir. M.Şəhriyar yaradıcılığı ilə bağlı yazılanlar içərisindən araşdırdığımız mövzu ilə əlaqədar deyilənləri arayıb nizamlamaq, onlara münasibət bildirmək tədqiqatımızın predmetinə daxil olan məsələlərdəndir. Müqayisə üçün şairin farsdilli poeziyasının bəzi nümunələrinə də nəzər salınmış, təbii ki, M.Şəhriyarın doğma ana dilində yazdığı əsərlərinin günümüzə qədərki nəşr tarixi, bu sahədə olan vəziyyətə araşdırmada daha geniş yer ayrılmışdır ki, bunlar da tədqiqatın obyekt və predmeti sırasına daxildir.

***Tədqiqatın məqsəd və vəzifələri.*** M.Şəhriyarın anadilli poeziyasını tədqiqat mövzusu kimi seçməyimizin əsas məqsədi də şairin zəngin və dəyərli irsini bir daha gözdən keçirmək, zaman baxımından dəyərləndirmək, oxucu üçün maraqlı ola biləcək yeni məqamlara aydınlıq gətirməkdir. Tədqiq olunan mövzuya fərqli baxış

bucağından, rakursdan yanaşmaqla, yeni elmi nəticələrə nail olmaq, müqayisəli paralellər aparmaq tədqiqatımızın əsas hədəfi, məqsədidir.

***Tədqiqatın metodları.*** Dissertasiya işi aşağıdakı elmi metodlar əsasında yerinə yetirilmişdir:

-toplanmış fakt və materiallrın sistemləşdirilməsi metodu;

-sistemli təhlil və analiz;

-problemə kompleks yanaşma;

-ümumiləşdirmələr əsasında elmi nəticələrin əldə edilməsi.

Araşdirmada tarixi-müqayisəli metoddan da istifadə etmiş, tədqiqatın predmet və obyekti kimi seçilən nümunələr və onlara həsr olunan araşdırmaların meydana çıxdığı şərait nəzərə alınmışdır. İşin mahiyyəti müqayisəli təhlil və tədqiq tələb etdiyi üçün yeri gəldikcə, müqayisələrdən də istifadə etmişik.

Dissertasiyanın nəzəri əsaslarını Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığı haqqında yazılan elmi əsərlər, müasir ədəbiyyatşünaslıqla bağlı araşdırmalar və bu araşdırmalara müəllif kimi fərdi yanaşmamız təşkil edir.

***Müdafiəyə çıxarılan əsas müddəalar:***

M.Şəhriyarın anadilli poeziyasında milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsini tədqiq etmək və mövzunu tam şəkildə əhatə etmək üçün müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- şairin tərcümeyi-halı ilə bağlı mübahisəli məsələlərə aydınlıq gətirmək;
- M.Şəhriyarın Azərbaycandilli ədəbi irsinin tam və bütöv mənzərəsini yaratmaq;
- şairin anadilli əsərlərinin nəşri və tədqiqi probleminin araşdırılması tarixinə ümumi nəzər salmaqla bir çox həqiqətləri üzə çıxarmaq;
- şairin anadilli əsərlərinin əsas mövzu, vəzn və janrlarını müəyyənləşdirmək;
- sənətkarın lirikasında tarixə baxış, milli kimlik axtarışları, azərbaycançılıq, türkçülük və ana dili məsələsini tədqiq etmək;
- M.Şəhriyarın əsərlərində millətin və dünyanın dünəni, bu günü və sabahı haqqında düşüncələrinin nədən ibarət olduğunu göstərmək;

- “Səhəndim” və “Heydərbabaya salam” poemasında yaddaşa qayıdış və milli özünüdərk problemini araşdırmaq;

- “Heydərbabaya salam” poemasının təsir dairəsi haqqında müfəssəl məlumat vermək.

***Tədqiqatın elmi yeniliyi.*** Dissertasiya Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığının öyrənilməsi sahəsində sistemli şəkildə yazılmış əsərlərdən biridir. İş prosesində M.Şəhriyarın təvəllüd, təhsil illəri, ümumiyyətlə, həyatının və yaşam tərzinin bəzi mübahisəli məqamları faktlar əsasında dəqiqləşdirilmiş, həyatı haqqında pərakəndə şəkildə mövcud olan məlumatlar tədqiq olunaraq yekun nəticəyə gəlinmişdir.

M.Şəhriyarın Azərbaycan Respublikasında müxtəlif illərdə nəşr olunan həm anadilli, həm də farsdilli əsərlərindən edilmiş tərcümələrin əksəriyyətinin dəqiq ünvanları göstərilmiş, istər İranda, istər respublikamızda, istərsə də Türkiyədə kitab halında çap olunmuş anadilli əsərlərinin nəşri barədə geniş məlumat verilmişdir.

Tədqiqatda ilk dəfə olaraq ustad sənətkarın anadilli yaradıcılığında klassik və müasir şeir formalarında yazdığı əsərlərin janrları müəyyən edilmiş, şairin anadilli əsərlərinin vəzni və mövzu dairəsi haqqında ətraflı məlumatlar əksini tapmışdır.

Tədqiqatda şairin anadilli əsərlərində tarixilik və müasirlik konsepsiyası izlənilmiş, milli kimlik və milli şüurun formalaşmasında M.Şəhriyarın anadilli əsərlərinin rolu dəyərləndirilmişdir.

***Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.*** Tədqiqatın nəzəri-təcrübi əhəmiyyətini hər şeydən əvvəl, ustad sənətkarın ana dilində yazdığı əsərlərinin ideyalar aləmini, mövzu dairəsini, bədii irsini hərtərəfli araşdırmaq və qiymətləndirməkdə axtarmaq lazımdır. Tədqiqatdan milli Azərbaycan ədəbiyyatını öyrənənlər, Cənubi Azərbaycan ədəbiyyatının araşdırıcıları, bu sahələrlə bağlı tədqiqat aparanlar, ali məktəblərin müvafiq fakültələrində təhsil alan tələbələr, magistrlər, Şəhriyar şeirinin pərəstişkarları faydalana bilərlər.

***Dissertasiya işinin aprobasiyası və tədbiqi.*** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Elmi Şurası tərəfindən təsdiq olunmuş**,** Lənkəran Dövlət Universitetinin “Azərbaycan dili və ədəbiyyat” kafedrasında müzakirə edilmişdir. Tədqiqatın məzmunu,

başlıca nəticələri müəllifin beynəlxalq və respublika səviyyəli elmi konfranslarda etdiyi məruzələrdə, ölkədə və xaricdə çıxan nüfuzlu nəşrlərdə, dövri mətbuatda çap etdirdiyi 24 elmi məqalə və tezisdə öz əksini tapmışdır.

***Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.***Tədqiqat işi Lənkəran Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyat" kafedrasında yerinə yetirilmişdir.

***Tədqiqat işinin strukturu və ümumi həcmi.*** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya "Giriş" – 13630 işarə ; 3 fəsil: birinci fəsil 2 paraqraf – 78667 işarə; ikinci fəsil 2 paraqraf – 62619 şərti işarə; üçüncü fəsil 3 paraqraf – 88882 şərti işarə, Nəticə – 14751 şərti işarə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi "İstifadə edilmiş ədəbiyyat" siyahısı istisna olmaqla 258549 şərti işarə, 171 səhifədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş"** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodları müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, tədqiqat işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

**"Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasının mövzu dairəsi və problematikası"** adlı birinci fəsil iki paraqrafdan ibarətdir.

Fəslin **"Məhəmmədhəsən Şəhriyarın Azərbaycandilli ədəbi irsinin nəşri və problemin araşdırılması tarixinə ümumi nəzər"** adlanan birinci paraqrafında Azərbaycan və İran ədəbiyyatının fəxri sayılan, yaratdığı kamil sənət əsərləri ilə dünya söz sənətinə ustad imzası qoyan Seyid Məhəmmədhüseyn Şəhriyarın həyat yolu barədə müfəssəl məlumat verilmiş, şairin təvəllüd tarixi, orta və ali təhsil illəri, ilk şeirləri, ilk kitabları barədə Şəhriyarşünaslıqda olan və bəzən bir-birini təkzib edən, uzlaşmayan faktlara münasibət bildirilərək əsl həqiqət bərpa olunmuşdur.

Şəhriyarşünaslıqda belə bir fikir mövcuddur ki, şair yaradıcılığa çox erkən, uşaq yaşlarından başlamış və bədahətən dediyi:

*Ruqiyyə bacı,*
*Başımın tacı,*
*Əti at itə,*
*Mənə ver kətə,-*
*misraları da Azərbaycan dilində olmuşdur*[1].

Professor Elman Quliyevin, Cənubi Azərbayacan müəlliflərindən Əsğər Fərdinin, Cəmşid Əlizadənin fikirlərindən bəhrələnərək şairin ilk şeirləri barədə məlumat verilmiş, təsdiq olunmuşdur ki, onun ilk mətbu əsəri *"1920-ci ildə Təbrizdə Məhəmmədiyyə mədrəsəsinin nəşr etdirdiyi "Ədəb" məcmuəsində "Behcət" təxəllüsü ilə çıxmışdır*[2].

Şəhriyarşünasların ümumi fikri belədir ki, ustadın doğma Azərbaycan dilində yazdığı və elmə bəlli olan ilk mükəmməl əsəri "Heydərbayaya salam" poemasıdır. Bu əsəri yazmaqda özünü anası Kövkəb xanıma borclu bilən ustadın fikirlərini onunla bir ömürlük dostluq edən Böyük Nikəndiş "Şəhriyar və Azərbaycan türk dili" əsərində onun öz dili ilə belə qələmə alır: *"Heydərbaba" azəri dilində (azərbaycanca) yazılmış bir şedevrdir ki, onun meydana gəlməsində özümü bütünlüklə anama minnətdar bilirəm. Elə bil onu anam özü yazıb, yaradıb. Əgər o olmasaydi, "Heydərbaba" olmazdı"*[3].

Birmənalı şəkildə demək olar ki, Məhəmmədhüseyn Şəhriyarın anadilli əsərlərinin nəşri "Heydərbabaya salam" əsəri ilə başlayır. İki hissədən ibarət olan poemanın ilk yetmiş altı bəndlik hissəsinin yazılması, əsasən, 1950-51-ci illər kimi qəbul olunmuş, bəzi müəlliflər isə əsərin ilk hissəsinin yazılma ili kimi 1952-ci ili məqbul hesab etmişlər[4].

---

[1] Quliyev E, Seyid Məhəmmədhüseyn Şəhriyar / E.Quliyev. – Bakı: "Mütərcim", – 1999, – s.9; Ş.B.Təbrizi. Şəhriyarın şəxsi həyatı barədə deyilməmişlər / Təbrizi Ş.B. – "Ədəbiyyat qəzeti", – 9 yanvar 1998; Məhəmmədhüseyn Şəhriyar. Biblioqrafiya / – Bakı: 2017, – s.9.

[2] Quliyev E. Seyid Məhəmmədhüseyn Şəhriyar / E.Quliyev. – Bakı: "Mütərcim", – 1999. – s.9.

[3] Nikəndiş N. Şəhriyarın xəlvət dünyası. III cild / – N.Nikəndiş – Tehran: – "Pərivər" nəşriyyatı, – 1379 (1990). – s.447.

[4] Quliyev E. Göstərilən əsəri / – s.105.

M.Şəhriyarın "Heydərbabaya salam" poemasının ilk hissəsinin yazılması və nəşr tarixi barədə fikir müxtəlifliyi var. Fikirləri sərf-nəzər etdikdən sonra Həmid Məmmədzadənin *əsərin 1954-cü ilin fevral ayının üçüncü ongünlüyü, mart ayının birinci və ikinci ongünlükləri*[5] və Yusif Gədiklinin *"Heydərbabaya salam" ilk dəfə 1954-cü ilin mart ayında nəşr olunmuşdur. Bu nəşrin adı "Əz ustad Şəhriyar be ləhcəyi-məhəlleyi-Azərbaycan, be xətti Tahir Xoşnəvis, qravüri Ağaye-Şəari, Çapxaneyi -"Ettelaat". Təbriz, 1322 (1954)"*[6] doğru hesab edilmişdir.

M.Şəhriyarın "Heydərbabaya salam" poemasının ikinci hissəsini qələmə alması barədə "Ədəbiyyat və incəsənət" qəzetinin 30 iyun 1962-ci il tarixli nömrəsində məlumat verən və əsərdən bir parça nümunə gətirən Q.Beqdeli *1963-cü ildə "Seyid Məhəmmədhüseyn Şəhriyar" adlı kiçik həcmli monoqrafiyasını nəşr etdirir*[7].

*"Heydərbabaya salam" poemasının birinci hissəsi bütöv halda 14 dekabr 1963-cü ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilmişdir*[8]*. Q.Beqdeli bir il sonra Tehranın "Ettelaat" qəzetinin 4 iyun 1963-cü il tarixli sayına əsaslanaraq "Heydərbabaya salam" poemasının ikinci hissəsinin nəşri, əsərin xalq kütləri tərəfindən yüksək səviyyədə qarşılanması barədə ədəbi ictimaiyyətə müfəssəl məlumat vermişdir*[9].

Həmid Məmmədzadə "Heydərbabaya salam" poemasının ikinci hissəsi" adlı çox dəyərli məqaləsində M.Şəhriyarin ədəbi irsinə, xüsusilə "Heydərbabaya salam" poemasına yüksək dəyər verərək yazırdı: *"Şəhriyar gec dil açsa da, erkən dil açanlardan gözəl danışdı. O, Heydərbaba dağının timsalında bütün xalqına xitabən salam söyləyib, qəmini, kədərini, sevincini, arzu və amalını qayalardan axan*

---

[5] Məhəmmədzadə H. Şəhriyarın ana dilində şeirləri (M.Şəhriyarın "Külliyyati-divani-türki" kitabına müqəddimə). Birinci çap / H.Məmmədzadə – Tehran: İnteşarate-Negah-İnteşarate-Zərrin", – 1367 (1988). – s.5.

[6] Gədikli, Y. Şəhriyar və bütün türkcə şeirləri / Y.Gədikli. – Bakı: "Yom" yayınları, – 2007. – s.116.

[7] Beqdeli, Q. Məhəmmədhüseyn Şəhriyar / Q.Beqdeli. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1963. – 40 s.

[8] Məhəmmədhüseyn Şəhriyar. Heydərbabaya salam / – "Ədəbiyyat və incəsənət" qəzeti, – 14 dekabr 1963-cü il.

[9] Bax: "Ədəbiyyat və incəsənət" qəzeti, 4 iyul 1964-cü il.

*bulaqlar kimi saf, təmiz və şəffaf bir dildə ifadə etmiş, el isə onun salamına əleykəssəlam demişdir”*[10].

M.Şəhriyarın Şimali Azərbaycanda çap edilən ilk əsəri fars dilində qələmə aldığı, Cənubi Azərbaycana həsr etdiyi “Azərbaycan” rədifli qəzəlidir. *Bu qəzəl şair, tədqiqatçı, tərcüməçi İsmayıl Cəfərpurun tərcüməsində 11 oktyabr 1958-ci il tarixli “Ədəbiyyat və incəsənət” qəzetinin 3-cü səhifəsində verilmişdir*[11]. Sonrakı illərdə zaman-zaman M.Şəhriyarın həm Azərbaycan dilində yazdığı bir çox əsərlər, həm də fars dilində yazdığı və dilimizə tərcümə olunan şeirləri təkrar-təkrar çap olunmuşdur ki, dissertasiyada bu barədə yetərincə danışılmışdır.

M.Şəhriyarın anadilli əsərlərinin tədqiqinə şairin sağlığında başlanmış, bu məsələ konkret mövzu kimi seçilməsə də, müxtəlif tədqiqatlarda mövzu ilə bağlı mülahizələr irəli sürülmüşdür. Bu yöndə yazılmış əsərləri üç qrupa bölmək olar:

1. Məqalələrdə anadilli əsərlərə münasibət;
2. Şairin anadilli əsərlərinin tədqiqi kitab və monoqrafiyalarda;
3. Dissertasiyalarda problemin tədqiqi.

Məqalələrin sayı həddindən artıq çox olduğundan, əsas hesab oluna bilən və həm də sırf problemlə bağlı məqalələr üzərində dayanılmışdır. Bildirilmişdir ki, Şimali Azərbaycan ədəbi ictimaiyyətinin M.Şəhriyarın şəxsiyyəti, yaradıcılığı ilə tanışlığı professor Həmid Məmmədzadənin “Şəhriyar Təbrizi” məqaləsi ilə başlanmış, sonrakı illərdə professor Qulamhüseyn Beqdeli, akademik Mirzə İbrahimov və Həmid Məmmədzadənin məqalələri çap olunmuş, bu məqalələrdə M.Şəhriyarın ana dilində yazdığı yalnız bir əsəri – “Heydərbabaya salam” poeması haqqında müəyyən fikirlər səslənmişdir.

Bu illərdə ədəbiyyatşünas və dilşünas alimlərimizdən Məhəmmədəli Müsəddiq, Sabir Əmirov, Maarifə Hacıyeva, Kamil Vəliyev, Abbas Zamanov, Hökumə Billuri, Teymur Əhmədov, Nizami Cəfərov və s. bu kimi onlarla müəllif Azərbaycan mətbuatında

---

[10] Məmmədzadə H. “Heydərbabaya salam” poemasının ikinci hissəsi / – H.Məmmədzadə – “Ədəbiyyat və incəsənət” qəzeti, – 16 yanvar 1965-ci il.
[11] Şəhriyar, M. Azərbaycan / – “Ədəbiyyat və incəsənət” qəzeti, 11 oktyabr 1958-ci il.

M.Şəhriyar irsi ilə bağlı məqalələrlə çıxış etmiş, onun anadilli poeziyasına münasibət bildirmişlər ki, biz tədqiqat boyu onlardan bəhrələnmişik.

Respublikamızda M.Şəhriyar haqqında nəşr edilən ilk kitab Qulamhüseyn Beqdelinin "Məhəmmədhüseyn Şəhriyar" monoqrafiyasıdır. Şair haqqında ikinci monoqrafik tədqiqatın müəllifi Hökumə Billuridir ki, bu monoqrafiyaların hər ikisində, "Heydərbabaya salam" poeması istisna olmaqla, M.Şəhriyarın anadilli əsərlərindən bəhs olunmamış, təhlillər ədibin farsdilli əsərləri əsasında aparılmışdır.

Ölkəmizdə M.Şəhriyarın anadilli poeziyasının tədqiqinə həsr olunmuş kitabların nəşrinə XX əsrin sonlarında başlanmışdır. Bu kitabları iki qismə ayırmaq olar: 1)Sırf M.Şəhriyara həsr olunmuş kitablar; 2)Əsas tədqiqat obyekti M.Şəhriyar olmasa da, şairin yaradıcılığından da bəhs edən kitablar.

Birinci qrupa akademiklər Bəkir Nəbiyev, İsa Həbibbəyli, Budaq Budaqov, professorlar Himalay Qasımov, Elman Quliyev, Əjdər Ağayev, Fikrət Seyidov, f.e.d. Esmira Şükürova, f.ü.f.d., dosent Məsiağa Məhəmmədi, f.ü.f.d. Dürdanə Nağıyeva və Türkiyədən olan tədqiqatçı Yusif Gədiklinin kitabları daxildir.

İkinci qrupa daxil edə biləcəyimiz kitablar sayca daha çoxdur. Bunlara misal olaraq akademik Nizami Cəfərovun "Cənubi Azərbaycanda ədəbi dil: normalar, üslublar", f.e.d. Sabir Əmirovun "Cənubi Azərbaycan milli demokratik ədəbiyyatı (1941-1990)", professor Almaz Əliqızının "Cənubi Azərbaycan ədəbiyyatı məsələləri", professor Vüqar Əhmədin "Cənubi Azərbaycan poeziyası (1950-2010)" və s. misal göstərmək olar.

M.Şəhriyarın şəxsiyyəti və poetik irsi bir neçə dəfə dissertasiyalar üçün tədqiqat mövzusu kimi seçilmiş, bu haqda fəlsəfə doktorluğu, elmlər doktorluğu dissertasiyaları müdafiə olunmuşdur. Bunlara misal olaraq Nazim Rizvanovun "Məhəmmədhüseyn Şəhriyar yaradıcılığında vətənpərvərlik", Yusif Gədiklinin "Şəhriyarın həyatı və sənəti(Türkcə divanı əsasında)", Esmira(Fuad)Şükürovanın "Məhəmmədhüseyn Şəhriyar: həyatı, mühiti, yaradıcılığı", Məhərrəm Əlidustun "Məhəmmədhüseyn Şəhriyarın ədəbi irsi", Gülnaz Şahinin "Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının poetik qaynaqları" adlı

fəlsəfə doktorluğu, Elman Quliyevin "Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının təkamülü milli problemlər kontekstində" adlı elmlər doktorluğu dissertasiyalarını göstərmək olar.

Tədqiqatın I fəslinin ikinci paraqrafı **"Şairin anadilli əsərlərinin əsas mövzuları.Vəzn və janrlar"** adlanır. Bu paraqrafda şairin zəngin yaradıcılığında mövzu özəllikləri anadilli əsərləri əsasında təhlilə cəlb olunub.

Şairin anadilli ədəbi irsi ilə tanışılıq onu deməyə imkan verir ki, XX əsrin 50-70-ci illərində Cənubi Azərbaycan xalqının danışan dili, ruhunun və düşüncəsinin tərcümanı missiyasını M.Şəhriyar poeziyası şərəflə yerinə yetirmişdir.

Şəhriyar poeziyasının mövzu dairəsini tamlıqla əhatə etmək çətin olsa da, şairin öz əsərlərindən çıxış edərək onun anadilli yaradıcılığında mövzuların təsnifatını aşağıdakı kimi aparmışıq:

1.İctimai-siyasi şeirlər
2. Məhəbbər şeirləri
3. Avtobioqrafik səciyyəli şeirlər
4. Ana dili uğrunda mübarizəyə səsləyən şeirlər
5.Məktublar, ithaflar
6.Dini-fəlsəfi şeirlər

Məhəmmədhüseyn Şəhriyarın anadilli əsərlərini gözdən keçirtdikdə görürük ki, şair vətənpərvərlik, qəhrəmanlıq, mübarizlik, doğma yurda sədaqət, ana dilinin təbliği, milli-mənəvi dəyərlərə, tarixi keçmişimizə hörmət hissinin tərənnümünü yaradıcılığının bütün mərhələlərində diqqətdə saxlamışdır. "O taydan gələnə" şeirinə diqqət edək. Bu on üç beytlik qəzəldə vətənpərvərlik hissi elə böyük məhəbbətlə tərənnüm edilmişdir ki, əsər vətən haqqında ballada təsirini bağışlayır:

*Vətəndən ayrı düşən övladım! Qayıt vətənə!*
*Qayıt ki, göz yola dikmiş anan qayıtdı sənə*[12].

[12] Şəhriyar, M. Əbədiyyət gülüyəm mən (M.Şəhriyarın Azərbaycan dilində yazdığı əsərləri). (Redaktoru akademik İsa Həbibbəyli. Naşiri, ön söz, izah və şərhlərin müəllifi prof. İslam Qəribli. Tərtib edənlər: İ. Qəribli, E. Bağırova, Z. Zeynalova) / – Bakı: "Elm və təhsil", – 2017, – s.68.

M.Şəhriyar hər şeydən əvvəl, vətənpərvər şairdir. Şəhriyarın anadilli yaradıcılığına dərindən bələd olanlar yaxşı bilir ki, vətən, doğma yurd, mənsub olduğu xalq, azərbaycançılıq, türkçülük ideyası ustad sənətkarın yaradıcılığının mayasıdır. Tədqiqatçıların ümumi qənaətinə görə, M.Şəhriyar fars dilində yazdığı şeirlərində də ruhən türkdür. Təsadüfi deyildir ki, onun "Heydərbabaya salam" əsərini ana dilinə, ana dediyimiz vətənə ucaldılmış abidə də adlandırırlar.

Müşahidələr göstərir ki, M.Şəhriyarın anadilli əsərləri içərisində ictimai-siyasi məzmun daşıyan şeirləri çoxluq təşkil edir.

M.Şəhriyar həm də məhəbbət şairidir. Onun məhəbbət mövzusunda qələmə aldığı "Behcətabad xatirəsi", "Naz eyləmisən", "Getmə, tərsa balası", "Yar qasidi", "Məcnun", "Fasilə düşdü" şeirlərini səciyyələndirən əsas cəhət onların həyatiliyində, səmimi, təsirli və kövrək olmasındadır.

Ustad şair yaradıcılığında doğma ana dilinin təbliğinə də geniş yer ayırmış, əruz vəznində, qəzəl yanrında yazdığı "Türkün dili", "Azadlıq quşu "Varlıq", "Dərya elədim", "Əziz şairimiz Füzuli" əsərlərini bu problemə həsr etmişdir.

M.Şəhriyarın həyatının öyrənilməsində onun tərcümeyi hal-xarakteri daşıyan əsərlərinin əhəmiyyəti böyükdür. "Heydərbabaya salam" poemasını, əruz vəznində, beytlər şəklində yazdığı "Əzizə", "Əzizə can", "Əsli-Kərəm" şeirinə bir haşiyə", "Necə keçdi ömrün?", "Yata bilməyirəm", "Əmioğlum Mirəbülfəzlə", "Bəlalı baş", "Kərəc xatirəsi", "Fəxriyyə ölümü", "Qəm basdı qəlyanımı", "Dan ulduzu da batdı", heca vəznində, bəndlər şəklində olan "Xan nənə", "Gözümün yaşları" şeirlərini sənətkarın avtobioqrafik səciyyəli əsərləri sırasına daxil etmək olar.

M.Şəhriyarın Azərbaycan dilində qələmə aldığı şeirlərin bir qismini də onun mənzum məktubları və ithafları, dini-fəlsəfi şeirləri təşkil edir.

Müşahidələr göstərir ki, M.Şəhriyar anadilli şeirlərində ən çox əruzun həzəc və rəməl bəhrlərindən istifadə etmişdir. O da maraqlıdır ki, şairin həzəc bəhrində yazdığı şeirlərin əksəriyyəti janrına görə qəzəldir və bir neçəsi istisna olunmaqla, bunların əsas mövzularını məhəbbət mötivləri təşkil edir. Şairin "Şəhriyarın cavabı" (Məmməd Rahimə), "Behcətabad xatirəsi", "Türkün dili", "Qəm basdı

qəlyanımı", "Məcnun", "Sazlı şairimiz Xazinin ruhuna təqdim", "Fəxriyyənin ölümü", "Dünya nə yaman tapmacadır", "Cavidin qəbir daşına" və s. şeirləri həzəc bəhrində yazılmış, bu şeirlərdə, əsasən "məfA`İlün məfA`İlün məfA`İlün məfA`İlün" təfilələrindən istifadə olunmuşdur.

Həzəc bəhri ilə yanaşı M.Şəhriyar anadilli şeirlərində rəməl bəhrindən də çox istifadə etmişdir. Şairin bu bəhrdə yazdığı əsərləri həm janr, həm də məzmun etibari ilə seçilir. Belə ki, bir neçə qəzəl ("Naz eyləmisən", "Getmə, tərsa balası" və s.) istisna olmaqla, bu bəhrdə yazılmış digər əsərlərdə ictimai-siyasi motivlər daha güclüdür.

M.Şəhriyar anadilli şeirlərinin müəyyən qismini heca vəznində yazmış, daha çox 7, 8, 10, 11-lik heca bölgü sisteminə üstünlük vermişdir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Yeddi hecalı şeirlər. Buraya onun "Uşaqlar", "Bacım oğlu Bəhruzun bayatıları" və "Gözümün yaşları" şeirinin bəzi bəndlərini daxil etmək olar.

2. Səkkiz hecalı şeirlər. Buraya beşlik formasında olan "Qardaşım Süleyman Rüstəmə", "Xan nənə" və gəraylı formasında "Yalan dünya" şeirlərini misal göstərmək olar.

3. On hecalı şeirlər: Şairin "Qardaşım Süleyman Rüstəmə ithaf" şeiri bu bölgüdədir.

4.11 hecalı şeirlər. Şairin "Qaçaq Nəbi", "Süleyman Rüstəmə" qoşmaları, "Məmməd Rahim həzrətlərinə cavab", "El bülbülü" beşlikləri, "Süleyman Rüstəmə" və "Heydərbabaya salam" poemaları bu ölçüdə olan əsərlərdir.

Birinci fəsil haqqında qənaətlərimizi ümumiləşdirərkən belə bir nəticəyə gələ bilərik ki, M.Şəhriyarın anadilli əsərlərinin nəşri və tədqiqi sahəsində Azərbaycan ədəbiyyatşünaslığında xeyli işlər görülmüş, ən əsası, onun anadilli poetik irsinin bir növ elmi-tənqidi mətni hazırlanaraq ədəbi-elmi ictimaiyyətə təqdim olunmuşdur. Şair haqqında yazılan məqalə, kitab, monoqrafiya və dissertasiyalarda onun zəngin və çoxcəhətli ədəbi irsi müxtəlif yönlərdən araşdırılmış və M.Şəhriyar birmənalı olaraq böyük şair və söz ustadı kimi dəyərləndirilmişdir.

M.Şəhriyarın anadilli əsərlərinin mövzu dairəsi, göründüyü kimi çox əhatəli olmuş, xalqın həyatında baş vermiş taleyüklü məsələlər şairi

daim düşündürmüşdür. Azərbaycan dilinin poetik, üslubi imkanlarından bacarıqla və böyük ustalıqla istifadə edən şair Azərbaycan şeirində hakim mövqe tutan əruz və heca vəznində bir çox janrlarda yazdığı əsərləri ilə ədəbi-bədii fikrimizə xüsusi bir ahəng, gözəllik ruhu bəxş etməklə, ölməz sənətkar olduğunu bir daha təsdiq etməyi bacarmışdır.

**"Milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsi Məhəmmədhəsən Şəhriyar poeziyasının baş və aparıcı mövzusu kimi"** adlanan ikinci fəsil iki paraqrafdan ibarətdir və bu fəsildə şairin milli yaddaşa köklənən əsərləri tədqiqata cəlb edilmişdir.

Birinci paraqraf **"Şairin lirikasında tarixə baxış, milli kimlik axtarışları.Azərbaycançılıq, türkçülük və ana dili məsələsi"** adlanır.

XX əsrin 50-ci illərində Cənubi Azərbaycanda ana dilində kitab çapı və mətbuat yayımı rəsmən qadağan edildiyindən, bu dövrdə bir sıra istisnalar olmaqla, yaranan anadilli poeziyanın tam mənzərəsini yaratmaq çətindir. 1954-cü ilin mart ayında Təbrizin "Ziba" çapxanasında çap olunmuş M.Şəhriyarın "Heydərbabaya salam" poemasının birinci hissəsinin çapını çıxmaq şərti ilə 1960-cı illərə qədər Azərbaycan dilində ədəbi-bədii kitabın çap edilməsi haqqında əlimizdə heç bir məlumat yoxdur.

M.Şəhriyarın anadilli poeziyasını, xüsusilə onun milli kimlik məsələsi ilə bağlı əsərlərini, təbii ki, "Heydərbabaya salam" poeması ilə məhdudlaşdırmaq olmaz. 1950-1970-ci illərdə, İran İslam İnqilabına qədər M.Şəhriyar müxtəlif janr və vəznlərdə ana dilində yetmişdən yuxarı əsər yazmışdır ki, bunlardan bir çoxu ictimai məzmunlu olub birbaşa araşdırdığımız problemlərlə bağlı olan şeirlərdir. Bunlara şairin "Türkün dili", "Dərya elədim", "Azadlıq quşu "Varlıq", "Şəhriyarın cavabı", "Süleyman Rüstəmə", "O taydan gələnə", "Məmməd Rahim həzrətlərinə cavab", "Qaçaq Nəbi" və s. bu kimi misal göstərmək olar.

Cənubi Azərbaycan poeziyasında M.Şəhriyar qədər həyatının keçmiş məqamlarına bağlı olub həmin yaşantıları şeirə gətirən və bununla da milli kimlik hissinin qabardılması və milli şüurun formalaşmasına xidmət edən ikinci bir sənətkar tapmaq mümkün deyil.

Milli kimliyi, mənsub olduğu ailəsi, el-obası ilə həmişə fəxr edən şair üçün vətən doğulduğu komadan, obadan, Heydərbabadan, onu dünyaya gətirən ata-anadan başlanır. Şəhriyara görə, vətənə məhəbbət

soy-kökünə, ailəyə məhəbbətdir, valideynini sevməyən vətənini, xalqını, millətini də sevə bilməz.

M.Şəhriyar üçün milli kimlik həm də mənsub olduğu xalqın dilinə ehtiramla ölçülür və şair "Heydərbabaya salam" poemasını yazıb ədəbi ictimaiyyətə təqdim edəndən sonra da bu ölçünü həmişə gözləyib. Nəzərə almaq lazımdır ki, Məhəmməd Rza şahın idarəçilik rejimində, qatı şovinizmin tuğyan etdiyi bir vaxtda hakim fars dilini qoyub, ana dilində əsərlər yazmaq hakimiyyətlə qarşıdurmaya getmək, həyatını təhlükəyə atmaq demək idi. Bu isə, heç şübhəsiz ki, M.Şəhriyarın hünəri və milli kimliyini açıq şəkildə, qorxmadan bəyan etməsinin təzahürü idi.

Ustad şairin söz sənətinin gücü ondadır ki, türk dilinə olan sevgisini, fəxarət hissini əsərlərinə ustalıqla köçürə bilib. Akademik İsa Həbibbəyli çox haqlı olaraq yazır: *"Şəhriyar və ana dili mövzusu Şəhriyar və Azərbaycan mövzusunun üzvi tərkib hissəsidir. Şairin hələ 1969-cu ildə Pəhləvi rejimi zamanı İranda Azərbaycan dilinin qadağan olunduğu dövrdə yazdığı "Türkün dili" şeiri ilk növbədə böyük cəsarətin ifadəsidir. Bu şeir indiyədək ana dilimiz haqqında yazılmış şeirlərin ən kəsərlisi və qürurvericisidir. Şəhriyar ana dilini sadəcə tərənnüm etməmiş, böyük vətəndaş cəsarəti ilə doğma dilin mübariz keşiyində dayandığını bəyan etmişdir"*[13].

Vətənpərvərlik və mübarizlik ideyaları, haqqa, ədalətə çağırış motivlərinin güclü olduğu "Səhəndim", "Azadlıq quşu "Varlıq", "Zaman səsi", "O taydan gələnə", "Allah vədəsi", "İns və Cin", "Qardaşım Süleyman Rüstəmə", " Türkiyəyə xəyali səfər", "Qaçaq Nəbi" və s. əsərlərində milli kimlik və tarixi yaddaş məsələsini açıq şəkildə müzakirə predmetinə çevirən M.Şəhriyarın "Heydərbabaya salam" poemasında Koroğlunun qəhrəmanlığını xatırlatması tarixi keçmişimizə, bu keçmişi şücaətlərində yaşadan el qəhrəmanlarına verdiyi dəyərin göstəricisidir.

II fəslin ikinci paraqrafı "**Millətin və dünyanın dünəni, bu günü və sabahı haqqında düşüncələr"** adlanır.

---

[13] Həbibbəyli İ. Ustad Məhəmmədhüseyn Şəhriyar / İ.Həbibbəyli – Bakı: "Elm" nəşriyyatı, – 1993. – s.23.

M.Şəhriyar poeziyası humanizm ideyalarına söykənən, müharibə qızışdıranlara, xalqlar arasında nifaq toxumu səpənlərə qarşı nifrət tərbiyə edən bir poeziyadır. Mayası mücərrədlikdən, yalançı humanizmdən uzaq, zamanla səsləşən bu poeziya bəşəri ideyaları təbliğ edir, insanları sülhə, əmin-amanlığa, saflğa, bəşəriyyətin sabahı uğrunda fəal mübarizəyə səsləyir. Vahid vətən problemi onun poeziyasında daha böyuk məna və ideya kəsb edir.

Şeirlərində sosial və inzibati əksliklər, imperializmi və onin yerli əlaltılarını tənqid edib şahlıq üsuli-idarəsinə qarşı müxalifətdə olan, İran İslam İnqilabı ərəfəsində inqilabçılarla həmrəylik nümayiş etdirən şair rejimin xalqa düşmən və şovinist mövqedə olduğunu söyləməkdən çəkinməmişdir.

M.Şəhriyar humanist, insansevər və bəşəri olduğu qədər də soy-kökünə bağlı olmuş, millətinə xor baxanlara qarşı barışmaz mövqe tutmuşdur. Onun fars dilində yazdığı "Azərbaycan", "Əsir Azərbaycanıma xitab", "Tehran və tehranlı ("Bir azərbaycanlı əsgərin gileyi") və başqa şeirlərində ortaya qoyduğu vətəndaş və şair mövqeyini biz şairin ana dilində yazdığı bir çox əsərlərdə, xüsusulə, "Məmməd Rahim həzrətlərinə cavab" və "Döyünmə-söyünmə" şeirlərində aydın şəkildə görə bilirik.

M.Şəhriyarın anadilli şeirlərində milli kimlik və milli yaddaşın inikası məsələlərindən danışarkən, şairin türklüyə, türk dilinə və Türkiyəyə münasibəti məsələsindən də söz açmaq istəyirik.

Məhəmmədhüseyn Şəhriyarın anadilli poetik irsi içərisindəki bəzi şeirlərində İstanbul və Türkiyə adına rast gəlinməklə yanaşı, biz onun birbaşa Türkiyəyə həsr etdiyi əsərlə də rastlaşırıq. Bu, "Türkiyəyə xəyali səfər" şeiridir ki, bu əsərdən lirik poema kimi də bəhs etmək olar.

M.Şəhriyarın 1986-cı ilin sentyabr ayında yazdığı "Türk övladı, qeyrət vaxtıdır" şeiri də onun türkçülük ideologiyasını və milli mənlik şüurunu təbliğ edən əsərlərindəndir. Burada başlığa çıxarılmış "türk övladı" kəlmələri geniş mənada olub, təkcə Cənibi və Şimali Azərbaycana deyil, habelə Türkiyə Respublikasına, türk dünyasına da şamil edilə bilər.

M.Şəhriyar Azərbaycan xalqının tarixinin, mədəniyyətinin qədim və böyüklüyünə görə daim fərəh duymuş, dünya xalqları arasında

millətinin zəngin mədəni-mənəvi keyfiyyətlərini ən qabarıq formada tərənnüm etmişdir. "Turkun dili tək sevgili, istəkli dil olmaz", "Türkü, vallah, analar oxşarı laylay dilidir" və s. kimi misralarda milli təəssubkeşlik amili ön planda dayanır.

M.Şəhriyarın yaradıcılığında mültikulturallıq və tolerantlıq elementlərinə geniş yer verməsi bəşəri dəyərlərə olan ehtiramından doğur. Öz ana dilini sevən şair digər dillərə və dinlərə də hörmətlə yanaşır, dini dözümlülüyü təbliğ edir, müxtəlif dinlərə mənsub qəhrəmanların heç birinin milliyətinə, dini görüşlərinə qarşı çıxmır. Onun yaradıcılığında etnik, dini, milli azlıqlara, onların şəxsiyyətinə böyük ehtiram təbliğ və tərənnüm olunur.

**"Məhəmmədhüseyn Şəhriyarın poemaları milli və bəşəri düşüncələrinin bədii salnaməsi kimi"** adlanan üçüncü fəsil 3 paraqrafdan ibarətdir.

Fəslin **"Səhəndim", yaxud "Şəhriyarın vətəniyyəsi"** adlı birinci paraqrafında şairin anadilli yaradıcılığında özünəməxsus yeri olan, qələm və məfkurə yoldaşı, istedadlı şair Bulud Qaraçorlu Səhəndə (1925-1979) həsr etdiyi, əvvəldən axıra kimi möhtəşəm musiqili ruhun hakim olduğu "Səhəndim" poeması tədqiq olunur (Poema bəzi nəşrlərdə və tədqiqatlarda "Səhəndiyyə" də adlandırılır – E.İ).

Əsərin ilk bəndində idealını elan edən şair poemanın sonrakı hissələrində daha da irəliyə gedərək milli kimlik və özgürlük barədə düşüncələri ilə oxucuları tanış edir.

Mahir bir rəssamın firça ilə çəkdiyi gözəllikləri sözlə yaradan şair Azərbaycan torpağının, təbiətinin ecazkar obrazını gözümüzün önündə bütün əlvanlığı ilə canlandıra bilir.

Şirin çeşmələrin "sonalar sinəsitək şux məmələrə" bənzədilməsi tamamilə yeni və heyrətamiz bir təşbeh olmaqla yanası, yamaclarda, qayalarda kəklik beçələrinin fərələrlə fərəhlə uçuşması da, ətəklərdə qızların yanaqlarına bənzəyən lalələrin açılması da, neyin sədası altında quzuların ayın-şayın otlaması da insanı daxilən saflaşdıran, ilahi bir eşqlə yaradılmış təbiət gözəlliyinin parlaq tablosudur.

Şair qışın gedib əvəzində yazın gələcəyini, novruzgülü, qarçiçəyinin açılacağını təsvir etməklə təkcə baharın müjdəsini vermir, sətiraltı da olsa, yurda gələcək azadlıqdan söz açır.

Səhənd dağına müraciət edən Şəhriyar onun ucalıqda Tehran yaxınlığında yerləşən Dəmavənd dağından bac alıdığını elə-belə, gəlişi gözəl fikir kimi şeirə gətirmir, Səhənd dağını "Şir əlindən tac alarsan" kimi öyməklə, əslində doğma yurdu Azərbaycanın nəyə qadir olduğuna işarə edir.

"O da Simurqdan almaqdadı fəndi" misrası ilə B.Səhəndi işıq, azadlıq və xeyirxahlıq rəmzi hesab edilən əfsanəvi Simurq quşu ilə müqayisə edən M.Şəhriyar onu eşqə, eşq əhlinə müştaq gördüyünü, əsərlərinin əbədiyaşar olacağını deyir. Bulud Qaraçorlu Səhəndin böyük sənətkar olduğunu vurğulamaqla bərabər, onun şeirlərinin sanki göylərdən vəhy kimi nazil olduğunu bəyan edir.

B.Səhəndi xalqını sevən bütün təbəqələrdən olan insanlarla, ən əsası, yoxsullarla qaynayıb-qarışan, zalıma, zülmə qarşı barışmaz mövqe tutan, mərd və mübariz bir insan kimi xarakterizə edən M.Şəhriyar "Tur törətmiş ocağında" ifadəsi ilə onu Musa peyğəmbərə bənzədir.

"Şairin aləmi ölməz, ona aləmdə zaval yox" - deyən şair az sonra "Sabirin şəhərinə doğru qatarı çəkmədə sarvan, ay xəyalımdakı Şirvan!" misralarını işlədir. Diqqət edilərsə, bu misralar çox incə mətləblərdən xəbər verir. Şair açıq kontekstdə deməsə də, M.Ə.Sabirin şəhəri Şamaxını və Şirvanı xatırlamaqla, əslində parçalanmış Azərbaycan problemini yada salır. Bu misralarla o, İranın tərkibində olan, ana dilində məktəbi, mətbuatı olmayan Cənubi Azərbaycanla öz dilində məktəbi, mətbuatı, radio və televiziyası, ümumiyyətlə, hər cür milli təsisatlara malik olan Şimali Azərbaycanı müqayisə edir, cənublu soydaşlarımızın halına acıyır.

Xalqın tarixi keçmişini "Qəsrlər vardı qızıldan, qalalar vardı əqiqdən" kimi misralarla xatırladan, indi isə bir çoxu artıq xəyala dönən tarixi olayların və şəxsiyyətlərin adını çəkən, əsasən üstüörtülü şəkildə danışan sənətkar Bulud Qaraçorlu Səhəndə müraciətdə onunla eyni dərddə, eyni məslək və əqidədə olduğunu açıq şəkildə bildirir.

Poemanın son hissələri, demək olar ki, parçalanmış Azərbayacanın ən ağrılı məsələlərindən olan ayrılıq probleminə həsr olunmuşdur. Ustad sənətkar onun səsinə Şimali Azərbayacan şairlərinin həvəslə səs verdiyini dağların dağlara dayaq durması, Arazın sularının

durularaq qaranlıqlara çıraq tutması, aydın şəfəq olması, “o tayın nərəsi” kimi dəyərləndirir.

Ədəbiyyatşünas alimlər bu əsəri M.Şəhriyarın yaradıcılığında, ümumən Azərbaycan ədəbiyyatında hadisə kimi qiymətləndirirlər. Akademik İsa Həbibbəyli yazır: *“Səhəndiyyə” poemasını Şəhriyarın “Heydərbabaya salam” poetik silsiləsinin davamı, daha çox isə mənalı yekunu kimi də qəbul etmək olar...Məhəmmədhüseyn Şəhriyarın “Səhəndiyyə” poeması Bulud Qaraçorlu Səhəndin məktubu ilə birlikdə Azərbaycan şeirinin təzə və mənalı bir “Vətəniyyə”sidir”*[14].

Burada poemanın vəzni və quruluşu barədə də bəzi mülahizələrimizi bildirmək istəyirik. Anadilli əsərlərini əruz və heca vəznində yazan M.Şəhriyar bu əsəri yazarkən başqa bir yol seçmiş, poemanı daha çox azad şeir üslubunda qələmə almışdır.

Ahəngdarlığı və ləngərliliyi ilə əruzun “Rəməl” bəhrinə daha yaxın bir ölçüdə qələmə alınmış bu əsər ilk baxışda yazılış forması etibarı ilə klassik şeir janrı olan müstəzada bənzəsə də, onu müstəzad adlandırmaq doğru olmaz. Müstəzad məlum olduğu kimi, *“əsas etibarı ilə məhəbbət və gözəllik mövzusunda yazılır. Həcmi çox vaxt 20-40 misra arasında olur. Son iki misradan birində müəllifin təxəllüsü verilir. Ölçüsü etibarı ilə misralardan biri uzun, digəri qısa, sonra yenə uzun, yenə qısa olur”*[15].

Fəslin **“Heydərbabaya salam” poemasında yaddaşa qayıdış və milli özünüdərk”** adlı ikinci paraqrafında şairin Azərbaycandilli yaradıcılığının zirvəsi hesab edilən bu monumental poeması tədqiq olunmuş, əsərin ideya-bədii xüsusiyyətləri barədə geniş məlumat verilmişdir.

Xatırladaq ki, “Heydərbabaya salam” poemasının ilk çapına M.Şəhriyarın özünün yazdığı izahlardan əlavə, daha iki ədəbiyyat bilicisi ön söz yazıb. Farsca yazılmış bu ön sözlərin müəlliflərindən biri həmin dövrün tanınmış ədəbi simaları – Təbriz Maarif Şöbəsi müdirinin müavini Mehdi Rövşənzəmir, digəri Təbriz Universitetinin

---

[14] Həbibbəyli İ. Ustad Məhəmmədhüseyn Şəhriyar / İ.Həbibbəyli – Bakı: “Elm” nəşriyyatı, – 1993, – s.25.

[15]. Ədəbiyyatşünaslıq terminləri lüğəti (tərt.ed. Ə.Mirəhmədov) / – Bakı, “Maarif”, 1978. – s.119.

ədəbiyyat ixtisası üzrə professoru Əbdül Əli Karəngdir. Müəlliflərin hər ikisi əsəri ədəbi bir hadisə kimi dəyərləndirmişlər.

"Heydərbabaya salam" böyük ictimai məna tutumuna malik bir əsərdir. M.Şəhriyar burda ötənlərin xatirəsinə işıq tutmaqla kifayətlənməyib, millətinin sabahı üçün keçirdiyi narahatlıq hissini Heydərbaba ilə bölüşməklə dünyaya car çəkib. "Hər kəs sinib bir dəməkdə sıxılıb" deyən şairin dərd ortağı Heydərbabaya dedikləri millətinin sabahı üçün keçirtdiyi nigarançılıq hissinin nə qədər ağır olduğunu göstərir.

M.Şəhriyarın "Heydərbabaya salam" poemasının I hissəsini nikbin sonluqla yekunlaşdırması vətəninin sabahına olan inamından doğurdu. Şair inanırdı ki, Heydərbaba yurdunda doğulan mərd oğullar gün gələcək, "namərdlərin burunların ovacaq".

"Heydərbaba, səni vətən bilmişdim" deyən Şəhriyar illər sonra uşaqlıq və gənclik illərinin məkanına dönəndə əvvəlki nikbinliyindən əsər-əlamət qalmamışdı, "qəmli qürbət", "acı şərbət", "qəmli zindan" şirin xatirələrini acılaşdırmışdı. Elə buna görə də əsərin II hissəsində ictimai-siyasi, sosial yük, zəmanədən şikayət motivləri daha güclüdür.

"Heydərbabaya salam" poeması şairin həm öz keçmişinə, həm də yaşamış olduğu həyatın özünə səyahət etmək, hadisələri nağıl etmək yolu ilə qələmə alınmışdır. Poemada şair özü əsas obrazdır. Təhkiyəci Şəhriyarın özüdür. Şəhriyar bir şair kimi nəyə qadir olduğunu bu əsərdə tam gücü ilə göstərə bilib. Yaradıcılığının dönüş nöqtəsi hesab edilən poemanın təsir gücü isə, hər şeydən əvvəl, təsvirin həyatiliyində, səmimiliyindədir.

M.Şəhriyarın anadilli əsərlərinin toplandığı son nəşrlərdən birində ("Əbədiyyət gülüyəm mən") "Heydərbabaya salam" poemasının birinci hissəsində 76, ikinci hissəsində 46 bənd verilib. Bu bəndlərin hamısı birlikdə kamil bir əsər kimi poemanın vəhdətini təmin etməklə yanaşı, həm də hərəsi ayrılıqda bitkin bədii vahid təsiri bağışlayır.

"Heydərbabaya salam" poemasının bir özəl cəhəti də xalq həyatının, adət-ənənələrinin, milli bayramlarının bu əsərdə bütün tamlığı ilə təsvir olunması, şeir dili ilə sanki rəsm olunmasıdır.

III fəslin 3-cü paraqrafı **"Heydərbabaya salam" poemasının təsir dairəsi"** adlanır.

"Heydərbaba" yüksəkliyi-sənət möcüzəsi" məqaləsində professor Elman Quliyev yazır: *"Klassik ədəbiyyatda N.Gəncəvinin "Xəmsə"si nəzirə sahəsində Şərq dünyasında hansı təsirdə olmuşsa, müəyyən istisnalıqla müasir dövrdə də Şəhriyarın "Heydərbabaya salam" poeması həmin təsirdə olmuşdur"*[16].

M.Şəhriyar "Heydərbabaya salam" poemasının II hissəsini yazarkən artıq əsərin I hissəsindən təsirlənib nəzirə yazanlar kifayət qədər idi.

Mənzuməyə ilk nəzirə yazanlar Cənubi Azərbaycan ədəbiyyatının tanınmış simaları idi. Nüsrətulla Fəthi Atəşbak (Atəşbəyli), təbrizli M.S.Cənnətiməqam, Cabbarbəy Bağçaban, Hüseynqulu Coşqun, İnayətulla Əmirpur, Əli Təbrizi, Əli Azəri və başqaları öz nəzirələrində ana dilinə həsrət qalmış bir xalqın dərdlərinə "Heydərbabaya salam"ın əvəzsiz məlhəm olduğunu yazdılar. Xalqın ruhunu, qan yaddaşını, milli-mənəvi koloriti, tarixi gerçəkliyi incəliklərinə qədər ədəbiyyata, poeziyaya gətirən bu əsər təkcə ədəbiyyatda yox, şüurlarda da bir canlanma, oyanma yaratdı. Buna görə də Şəhriyara nəzirə yazan hər kəs onu Güney Azərbaycanda türkcənin oyadıcısı adlandırır, qələm sahibləri sevinclərini, ürək sözlərini poetik dillə əks etməyə cəhd edirdilər. Şəhriyara nəzirə yazanlar arasında tanınmışlarla yanaşı, gənc şairlər də vardı. Bu şeirlər formaca, yazılış üslubuna görə müxtəlif olsa da, məzmun və məqsədcə yaxın idilər. Ən əsası, nəzirələrin hamısı doğma ana dilində, "Heydərbaba stili"ndə yazılırdı ki, bu da ana dilinin vətəndaşlıq kəsb etməsində, geniş yayılmasında, ictimai yükünün artmasında mühüm rol oynadı. Tanınmış fars şairləri, ziyalıları əsəri yazıldığı Azərbaycan türkcəsində, orijinalda oxumaq üçün bu dili öyrənirdilər. Bu, Şəhriyar qələminin gücü, sözünün qüdrəti idi.

"Heydərbabaya salam" Güney Azərbaycanında poema janrının yeni inkişaf yoluna qədəm qoymasına yardımçı oldu. Poemanın

---

[16] Quliyev, E. Heydərbaba yüksəkliyi – sənət möcüzəsi / E.Quliyev – Bakı: – 2011, – "Azərbaycan şərqşünaslığı", №2(6), – s.36.

təsiri ilə Əhməd Şədi Alov "Heydərbabadan Şəhriyara məktub", Qaflantı "Təpiyin dağı", "Bir kəndin bir illik xatirəsi", Qafar İftixari "Savalana salam", Abbas İslami Bariz "El dayağına salam", Qulam Daravalı "Savalanım", B.Q.Səhənd "Hörmətli ustad böyük Şəhriyara", M.S.Şami "Kənd cevizi", Bəxtiyar Muğanoğlu "Ay Savalan", Əlirza Purbozorg Vafi "Eynalıya salam", Hacı Əbdürrəhman Təyyar - Dədə Katib "Urmu gölü", Şamlı Vəhdani "Ay ciğaty, salam", Hadi Sultani "Pir Səqa nəğmələri", Əli Əkbər Turabı Həllacoğlu "Eynalı", H.A.Barışmaz "Çağrılmamış qonaqlar", M.T.Zehtabi "Rəxşəndənin arzusu", Qulamhüseyn Bəydili(Beqdeli) "Köhləyə salam", Əli Kuşan "Heydarbabanın Şəhriyara salamı" adlı böyük həcmli poemalarını, Valeh Dəstpiş "Ustad Şəhriyarla ilk görüş münasibətilə", Fəxrəddin Məhzun "Qəzəl", Rza Əfşarpur "Ay Şəhriyar", Tofiq Qafari, Hüseyn Düzgün, Əli Təbrizi, Mirismayıl Cabbarinejad, İ.Əmirpur, Qasım Cahani, Səttar Zərdabi, Məsud Ədib, Şəhidi və b. isə M.Şəhriyara ünvanlanmış şeirlərini qələmə aldılar.

H.Sahir "Heydərbabaya salam" poemasından təsirlənərək yazdığı "Məktəb xatirələri" poemasında fərdi xatirələri fonunda Güney Azərbaycan, eləcə də İran xalqlarının taleyini işıqlandırmağa, vətənin keşməkeşli, müsibətli hadisələrlə zəngin tarixini canlandırmağa nail olmuşdur.

M. Şəhriyar "Heydərbabaya salam"ına həsr olunmuş cavab və nəzirələr içərisində Məhəmməd Əli Saibi, Bulud Qaraçorlu Səhənd və Əlirza Purbozorg Vafinin poemalarını daha çox bəyənmişdir.

Cənubi Azərbaycan ədəbiyyatının ünlü simalarından sayılan Ə.P.Vafi "Eynalıya salam" poemasında Eynalı dağını Heydərbaba kimi vətən obrazında verir, onu xalqın pənahı, sığınacağı, sirdaşı, dəfinələr ocağı adlandırır, dərdləşir, vətəninin ağrı-acılarını bölüşdürür. *"Poemanın daha bir özəlliyi "Fədaiyane-xəlq (21 Azər)" hərəkatının qəhrəmanlarını yetişməkdə olan nəslə, xalqa tanıtmaq, tariximizi, keçmişimizi, milli kimliyimizi, mənəvi dəyərlərimizi unutmamağa çağırışdır. Ə.P.Vafi Azərbaycan tarixinin həmin dövrünün qızıl səhifələrini yazan fədakarları-Səməd Behrəngi (Qaranquş), Behruz Dehqani (Aydın), Əlirza Nabdil (Oxtay), Behruz Həqqi (Çölgülü), Manaf Fələki, Kazım Səadəti və Əskər Ərəbherislini xalqına bir daha*

*bədii sözün qüdrəti ilə təqdim edir"*[17].

Maraqlı məqam budur ki, "Heydərbabaya salam" əsərinə nəzirə yazanların əksəriyyəti Şəhriyar şeirinin təsirindən qurtula bilməmiş, ustad sənətkar kimi Heydərbaba dağına müraciət formasını seçmişlər.

Təbrizli şair Məhəmmədtağı Şəbüstərlinin (Zehtabi) "Harda türk var, "Heydərbaba orda var" deyimi Şəhriyar yaradıcılığına verilən ən böyük qiymətdir. Şair 1988-ci ildə qələmə aldığı "Şəhriyarın məzarı qarşısında" şeirində bu əbədiyaşarlılığın sirrini açmağa çalışır.

Şəhriyara nəzirə yazanlar içərisində doğma bacısı Azadə xanım Xoşginabi də var. Onun qardaşının vəfatından az sonra dərin hüznlə qələmə aldığı "Heydərbaba şairi" şeiri sənətkarlıq cəhətdən, bədii məziyyətlərinə görə kamil sənət əsəri sayılmasa da, ən üstün cəhəti səmimiliyində və Şəhriyara olan dərin sevginin kövrək dillə təsvirindədir.

M.Şəhriyarın ölümünə yazılan şeirlərin belə "Heydərbabaya salam" üslubunda yazılması yazarların Şəhriyar sözünün sehrindən çıxa bilməmələrinin göstəricisidir.

Yazılan nəzirələr nə qədər çox olsa da, şəhriyarşünas alimlərin fikrincə heç biri "Heydərbabaya salam" zirvəsinə yüksəlib, onun qədər populyar ola bilməyib. Təbii ki, uzun müddət Tehran-Xorasan mühitində yaşayıb əsərlərini fars dilində yazmış Şəhriyar Azərbaycan dilində böyük həcmli və son dərəcə təsirli poemasını ortaya çıxaranda, həqiqətən, qeyri-adi ədəbi-ictimai hadisə baş verdi. Hələ çap olunmazdan öncə əlyazma şəklində yayılan əsər buludsuz göydə çaxmış şimşək təsiri bağışladı. Ümumiyyətlə, "Heydərbabaya salam" Şəhriyarın sənətdə qələbəsidir.

Tədqiqatın **Nəticə** hissəsində üç fəsil, yeddi paraqrafdan ibarət olan dissertasiyada tədqiqat boyu gəlinən nəticələr ümumiləşdirilmişdir ki, bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Sənətkarın təvəllüd tarixi, həyat yolu, təhsili, yaşam tərzi, orta və ali məktəb illəri, ilk şeirləri və ilk kitabları, anadilli əsərləri barədə deyilən fərqli fikirlər ümumiləşdirilərək bir sıra mübahisəli məsələlərə

---

[17] Şükürova, E.F. Güney Azərbaycan ədəbiyyatında Şəhriyar mərhələsi / E.F.Şükürova – "Xalq cəbhəsi" qəzeti, – 10 yanvar 2019-cu il.

aydınlıq gətirilmiş, irəli sürülən mülahizələr konkret dəlillərlə əsaslandırılmışdır.

- “Heydərbabaya salam” poemasının hər iki hissəsinin yazılması və nəşri tarixi ilə bağlı mübahisəli məqamlar aradan qaldırılmışdır.

- M.Şəhriyarın ədəbi irsi ilə Azərbaycan Respublikası oxucularının (keçmiş Azərbaycan Sovet Sosilalist Respublikası – E.İ.) tanışlığı məsələsi geniş şəkildə şərh edilmişdir.

- M.Şəhriyarın respublikamızda çap olunan ana dilində yazdığı bütün əsərləri barədə, demək olar ki, məlumat verilmiş, İranda, Türkiyədə və ölkəmizdə çap olunan mötəbər kitab nəşrləri tutuşdurulmuş, şairin “Əbədiyyət gülüyəm mən” adı ilə çap olunan anadilli əsərləri etibarlı və əhatəli nəşr kimi dəyərləndirilmişdir.

- Məhəmmədhüseyn Şəhriyarın anadilli əsərlərinə məqalələrdə münasibət; şairin anadilli əsərlərinin tədqiqi kitab və monoqrafiyalarda; dissertasiyalarda problemin tədqiqi kimi bölmələr altında ustad sənətkarın anadilli irsi dəyərləndirilmişdir.

- Şairin anadilli əsərlərinin əsas mövzuları vəzn və yanrlarına görə tədqiq olunaraq gəlinən nəticələr ümumiləşdirilmişdir.

- Şairin lirikasında tarixə baxış, milli kimlik axtarışları, azərbaycançılıq, türkçülük və ana dili məsələsi geniş şəkildə tədqiq olunmuş, fars şovinizminin İranda Azərbaycan türklərinin həyatında oynadığı mənfi rol barədə ətraflı məlumat verilmişdir.

- M.Şəhriyar poeziyasının humanizm ideyalarına söykənən, müharibə qızışdıranlara, xalqlar arasında nifaq toxumu səpənlərə qarşı nifrət tərbiyə edən bir poeziya olduğu əsaslandırılmışdır.

- M.Şəhriyarın anadilli şeirlərində milli kimlik və milli yaddaşın inikası məsələlərindən danışarkən, şairin türklüyə, türk dilinə və Türkiyəyə olan münasibəti məsələsinə də xüsusi diqqət yetirilmiş, onun “Türkün dili”, “Dərya elədim”, “Türkiyəyə xəyali səfər”, “Türk övladı, qeyrət vaxtıdır” şeirləri problematika baxımından ətraflı şərh edilmişdir.

- Şairin “Vətəniyyə”si hesab olunan “Səhəndim” poemasının yazılma səbəbləri, mövzu, məzmun, ideya və sənətkarlıq məsələləri şərh olunmuş, poemanın cəmiyyətdə milli kimlik və ictimai şuurun formalaşmasındakı rolundan danışılmış, irəli sürülən fikirlər əsərdən gətirilən sitatlarla möhkəmləndirilimişdir.

- “Heydərbabaya salam” poemasında yaddaşa qayıdış və milli özünüdərk problemi araşdırılmışdır.

- “Heydərbabaya salam” poemasınının təsir dairəsi məsələsi şərh olunmuş, bu nəticəyə gəlinmişdir ki, “Heydərbaba şairi”nin təsiri ilə yazılan şeirlər formaca müxtəlif olsa da, məzmunca demək olar ki, hamısında M.Şəhriyar sözünün təsiri açıq- aydın hiss olunur.

## DİSSERTASİYA İŞİNİN MÖVZUSUNA DAİR DƏRC OLUNMUŞ ELMİ ƏSƏRLƏRİN SİYAHISI


1. Şəhriyarın “Heydərbabaya salam”ında Novruz adət-ənənələri // – 525-ci qəzet (525.az). – 28 fevral 2018-ci il
2. M.Şəhriyarın “Heydərbabaya salam” poemasında Novruz adət-ənənələrinin təsviri və tərənnümü // – Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş “Müasir inkişaf mərhələsində elm, təhsil və istehsalatın vəhdəti” mövzusunda keçirilən respublika elmi–praktik konfransının materialları. –Lənkəran Dövlət Universiteti, 7-8 may 2018, s.91-92
3. Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasında azadlıq, qəhrəmanlıq, vətənpərvərlik ideyalarının tərənnümü// – Lənkəran Dövlət Universiteti “Elmi xəbərlər” jurnalı, – Humanitar elmlər bölməsi, –2018, №1, – s.114-118
4. M.Şəhriyarın anadilli əsərləri yeni topluda // – Lənkəran Dövlət Universiteti – “Elmi xəbərlər” jurnalı. – Humanitar elmlər bölməsi, 2018, №2, – s.86-91
5. M.Şəhriyarın “Heydərbabaya salam” poeması anadilli yaradıcılığının zirvəsidir//– “İnteqrasiya mühitində Azərbaycan elminin qarşısında duran vəzifələr” mövzusunda gənc tədqiqatçıların (magistrant və doktorantlar) respublika elmi konfransının materialları,– Lənkəran Dövlət Universiteti, – 21 dekabr 2018, – s.126-128
6. M.Şəhriyarın əsərlərində Azərbaycançılıq ideyalarının tərənnümü//–“Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu” mövzusunda Beynəlxalq elmi konfransının

materialları,– Sumqayıt Dövlət Universiteti, – 04-05 dekabr 2018, – s.446-448

7. M.Şəhriyarın “Səhəndiyyə” poemasında milli–mənəvi dəyərlərin qorunmasına və milli birliyə çağırış // – Ümummilli lider H.Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Tədris prosesində elmi innovasiyaların tədbiqi yolları” mövzusunda respublika elmi – praktik konfransının materialları.– Lənkəran Dövlət Universiteti, – 7-8 may 2019, – s.167-169
8. M.Şəhriyarın lirikasında tarixə baxış, milli kimlik axtarışları. Azərbaycançılıq, türkçülük və ana dili məsələsi // – Lənkəran Dövlət Universiteti – “Elmi xəbərlər” jurnalı – Humanitar elmlər bölməsi. 2019, №1, – s.52-58
9. Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığında multikulturallıq və tolerantlıq elementləri // – “Müasir təlim texnologiyalarının tətbiq olunmasının təhsilin keyfiyyətinə təsiri” mövzusunda gənc tədqiqatçıların respublika elmi–praktik konfransının materialları.–Lənkəran Dövlət Universiteti. – 24 dekabr 2019-cu il, – s.136-138
10. Məhəmmədhüseyn Şəhriyarın Azərbaycandilli ədəbi irsinin nəşri və problemin araşdırılması tarixinə ümumi nəzər // – Lənkəran Dövlət Universiteti “Elmi xəbərlər” jurnalı. Humanitar elmlər bölməsi – Lənkəran, 2019, №2, – s.31-37
11. Məhəmmədhüseyn Şəhriyarın anadilli şeirlərinin əsas mövzu dairəsi // – Azərbaycan Dillər Universiteti – “Elmi xəbərlər” jurnalı. – Bakı: – 2019, №1, – s.69-77
12. Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığında milli yaddaş aparıcı mövzu kimi // – Azərbaycan Respublikası Təhsil Nazirliyinin Azərbaycan İnşaat və Memarlıq Universitetində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmiş Doktorantların və Gənc Tədqiqatçıların XXIII Respublika elmi konfransının materialları. – II cild. 3-4 dekabr 2019-cu il, –s.95-96
13. Məhəmmədhüseyn Şəhriyarın anadilli yaradıcılığında Qafqaz mövzusu // – AMEA Qafqazşünaslıq İnstitunun keçirdiyi

Qafqazşünasların II Beynəlxalq Forumunun materialları, – II cild, – Bakı: – 2020, – s.418-423
14. Родноязычное творчество Махаммадгусейна Шахрияара в исследованияах Турции // – Евразийский Союз Уценых (ЕСУ) Ежемесячный научный журнал, – Moskva: – 2020, – №10, – с.46-50
15. Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasında təbliğ etdiyi vətənpərvərlik və qəhrəmanlıq ideyalarının müasir həyatımızda tərbiyəvi rolu //– Turan Strateji Araşdırmalar Mərkəzi Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergisi, – 12-ci cild. –Türkiyə: – 2020-ci il, №48, – s.85-89
16. Milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsi M.Şəhriyar poeziyasının baş və aparıcı mövzusu kimi// – “İnformasiya, elm, texnologiya və universitet perspektivləri” mövzusunda doktorantların və gənc tədqiqatçıların onlayn respublika elmi konfransının materialları. – Lənkəran Dövlət Universiteti. – 18 dekabr 2020-ci il. – s.186-188
17. M.Şəhriyarın lirikasında tarixə baxış və milli kimlik axtarışları//–“Filoloji Elmlər İnnovativ Tədqiqatlar kontekstində” mövzusunda Beynəlxalq elmi – praktiki konfransının materialları. – Bakı Slavyan Universiteti, – 24 dekabr 2020-ci il, – s.247-249
18. Məhəmmədhüseyn Şəhriyarın “Heydərbabaya salam” poemasının təsir dairəsi // – Lənkəran Dövlət Universiteti – “Elmi xəbərlər” – “Humanitar elmlər bölməsi” – 2020, №1, – s.84-90.
19. Məhəmmədhüseyn Şəhriyarın “Analar oxşaması” şeirində vətənpərvərlik hisslərinin tərənnümü // – Turan Strateji Araşdırmalar Mərkəzi Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergisi, – cild 13, – Türkiyə: – 2021, №49, – s.26-29
20. M.Şəhriyar yaradıcılığında ana dili mövzusu // – Ümummilli lider H.Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda XII Beynəlxalq elmi-praktik konfransının

materialları. – Bakı Slavyan Universiteti. – 30 aprel 2021-ci il. – s.179-182
21. M.Şəhriyarın anadilli yaradıcılığında məhəbbət mövzusu// – Ümummilli lider H.Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycanda xalq, dövlət və ordu birliyinin gücü" adlı onlayn Respublika elmi konfransının materialları. – Lənkəran Dövlət Universiteti. – 7 may 2021, – s.179-181
22. Praise of human feelings in M.Shahriyar's poem "Sahandiya" // – Восточно Европейский научный журнал. Sankt-Peterburq: – 2021, – №5(69), – p.37-40
23. Тема единого Азербайджана в творчестве М.Шахрияра на родном языке // – Центр перспективных научных публикаций, международная научно-практическая конференция, мировая и российская наука: проблемы и достижения, – Москва: – 2021, – с.67-71
24. Şəhriyarın "Heydərbabaya salam" poemasının nəşr tarixindən // – Lənkəran Dövlət Universiteti – "Elmi xəbərlər" – Humanitar elmlər bölməsi – 2021, №1. – s.26-32

Dissertasiya işinin müdafiəsi ___ _________ 2023-cü il tarixində saat ______ AMEA Nizami Gəncəvi adına adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən filologiya elmləri doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcələrini almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid prospekti 117., Akademiya şəhərciyi, Əsas bina, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı

Dissertasiya işi ilə AMEA Nizami Gəncəvi adını Ədəbiyyat İnstitutunun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adını Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___ _________ 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 31.05.2023

Kağız formatı: A5

Həcm: 42827

Tiraj: 100